AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

17 İYUL 2024-cü il ÇƏRŞƏNBƏ № 148 (7906) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

# Böyük investisiyalar məkanı




*"Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir. Son 30 il ərzində bizim çoxmilyardlı investisiya portfoliomuz olub. Azərbaycana ümumi investisiyalar 300 milyard ABŞ dollarından çox olub və bunun təqribən 200 milyard ABŞ dolları qeyri-neft sektorunun payına düşür". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı bildirib. Dövlət başçısı vurğulayıb ki, hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir.*

## *İnvestorların marağının artması region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində Azərbaycanın rolunu daha da genişləndirir*

Azərbaycanın şaxələndirilmə məsələsinə ilk yol açan bir ölkə rolunu oynadığını yüksək qiymətləndirən dünya dövlətlərinin, beynəlxalq təşkilatların təmsilçiləri bildirirlər ki, ölkəmiz öz ixrac imkanlarını genişləndirməklə Avropanın enerji təhlükəsizliyinin təminatına töhfələr verir. Bu gün ölkəmiz Avropanın neft ixracatında mühüm rol oynayır. Cənub Qaz Dəhlizi yalnız kəmər deyil, XXI əsrin mühüm strateji enerji dəhlizidir. Avropa İttifaqı müasirləşmə islahatları ilə bağlı Azərbaycanın bütün təşəbbüslərini dəstəkləyir və müxtəlif sahələrdə daha da dərin münasibətlər yaratmaq istəyir. Dünya əhəmiyyətli enerji layihələrini reallaşdırmaqla regional iqtisadi inkişafın aparıcı qüvvəsinə və Avratlantik məkanın enerji təhlükəsizliyinin təminatçısına çevrilən, iqtisadi artımın sürətinə görə dünya dövlətləri arasında birinciliyini qoruyan Azərbaycanın inkişaf strategiyası qabaqcıl təcrübə kimi nümunə göstərilir. Enerji amilinin gündəlikdə prioritet məsələlərdən biri kimi dayandığını qeyd edən Prezident İlham Əliyev bildirib ki, enerji siyasəti dostluğa və əməkdaşlığa xidmət etməli, millətləri, xalqları bir-birinə birləşdirməlidir. Dünyada sabitlik ölkəsi olaraq tanınan Azərbaycanın iqtisadi strategiyasını qabaqcıl ölkələrin təcrübəsinə əsasən müəyyənləşdirməsi davamlı uğurlarında öz sözünü deyir. Neft gəlirlərinin düzgün istiqamətləndirilməsi həm ölkəmizin hərtərəfli inkişafında mühüm rol oynayan sosial-iqtisadi layihələrin reallığa çevrilməsinə, həm də dövlət büdcəsinə böyük məbləğdə vəsaitin toplanmasına geniş imkanlar yaradır. Bu gün qürur hissi ilə qeyd edilir ki, respublikamız böyük investisiyalar məkanıdır.

Prezident İlham Əliyevin iştirakı ilə ötən ilin oktyabrında 230 MVt gücündə nəhəng Qaradağ Günəş Elektrik Stansiyasının açılış mərasimi də bunu aydın göstərir. Belə ki, "Masdar" şirkətinin investorluğu ilə Qaradağ Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi 2022-ci il martın 15-də keçirilib və bu stansiya Xəzər regionunda, eləcə də MDB məkanında ən böyük Günəş Elektrik Stansiyasıdır. Xarici investisiya cəlb olunmaqla reallaşdırılan sənaye mərkəzi hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edəcək ki, bu da 110 milyon kubmetr təbii qaza qənaət imkanı verəcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. Qeyd edək ki, 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək və daha çox layihələr reallaşacaq. Qaradağ Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi, sadəcə, bu prosesin başlanğıcıdır. Bu layihə gələcəkdə həyata keçiriləcək çoxsaylı layihələrin birincisidir. Planlar isə genişdir, mərhələlərlə 10 qiqavata qədər bərpaolunan enerji istehsal etmək üçün birgə işlər həyata keçiriləcək. Bu, regionun enerji inkişafında tam bir inqilab olacaq. Ölkəmizin iqtisadi qüdrətini artıran Prezident İlham Əliyev inkişafın Azərbaycan modelini dünyaya təqdim edir. Bu da ölkəmizin beynəlxalq arenada müsbət imicinin formalaşmasına ciddi təsir göstərir.

Hazırda 4 qiqavat gücündə bərpaolunan enerji mənbələri üçün texniki-iqtisadi əsaslandırmalar hazırlanır. Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Neftçala rayonunun Bankə qəsəbəsində Günəş Elektrik Stansiyası layihəsi ilə bağlı investisiya müqaviləsi imzalanıb.

**(davamı 2-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

"Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Biləsuvar rayonunda Günəş elektrik stansiyası layihəsi ilə bağlı İnvestisiya müqaviləsi", "Azərbaycan Respublikası Hökuməti ilə "Abu Dhabi Future Energy Company - Masdar" şirkəti arasında Azərbaycan Respublikasının Abşeron-Qaradağ rayonunda quruda külək enerjisi layihəsi ilə bağlı investisiya müqaviləsi" qlobal hədəflərə nail olmaq üçün zəmin yaradır. ABŞ, Böyük Britaniya, BƏƏ, Almaniya, Fransa və Rusiyadan, deməkolar, hər il Azərbaycanın qeyri-neft sektoruna müəyyən qədər investisiyalar yatırılır. Xarici investorların Azərbaycana marağını təmin edən amillərdən biri də ölkənin iqtisadi yeniliklərə açıq olmasıdır. Məsələn, Azərbaycan ənənəvi kənd təsərrüfatı, neft və qaz sahələri ilə yanaşı, "yaşıl enerji", "ağıllı" yaşayış məntəqələri və sair kimi layihələrə də investisiyaları təşviq edir. Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, Böyük Britaniya şirkətləri ilə "yaşıl enerji" istehsalı və ixracı sahəsində görülən işlər digər xarici investorları da bu sahəyə həvəsləndirir. Artıq bu istiqamətdə sərmayə yatırmaq istəyən investorların da sayı çoxalıb.

Yeni iqtisadi şəraitdə Azərbaycan iqtisadiyyatının qlobal mənfi təsirlərə yüksək dayanıqlılıq nümayiş etdirməsi də, ilk növbədə, ölkəmizdə zamanında qeyri-neft sahələrinin inkişafına münbit zəmin formalaşdırılması ilə bağlıdır. Belə ki, müstəqillik illərində respublikamızda böyükhəcmli dövlət investisiyaları hesabına irimiqyaslı su, yol-nəqliyyat və digər layihələr reallaşdırılıb. Şəmkirçay, Taxtakörpü, Tovuzçay kimi su anbarlarının istifadəyə verilməsi enerji ehtiyatlarını artırır. Son bir neçə ildir ölkəmizdə milli iqtisadiyyatımızın investisiya cəlbediciliyi baxımından uğurlu islahatlar həyata keçirilir. Dünyanın aparıcı təşkilatlarının hesabatlarında iqtisadiyyatımızın sürətlə inkişaf etdiyi, iqtisadi göstəricilərə görə lider ölkələr sırasına yüksəldiyi göstərilir.

Bir faktı da qeyd etmək lazımdır ki, "Moody's" beynəlxalq reytinq agentliyi Azərbaycan hökumətinin emitent və yüksək təminatsız xarici valyutada reytinqlərini "Ba1" səviyyəsində təsdiqləyib və proqnozu "sabit"dən "müsbət"ə dəyişib. Müsbət proqnoz iqtisadiyyatın şaxələndirilməsi və makroiqtisadi siyasətin effektivliyinin təkmilləşdirilməsi perspektivlərini əks etdirir. Bu da Azərbaycanın kredit profilinin daha yüksək reytinq səviyyəsinə uyğun olaraq daha da güclənməsinə səbəb ola bilər. Avropa və Asiya arasında mühüm nəqliyyat qovşağı kimi Orta Dəhlizin artan əhəmiyyəti və Azərbaycan daxilində investisiya qoyuluşu iqtisadi perspektivə təkan verir. İqtisadiyyatın şaxələndirilməsi ilə bağlı islahatların daha da dərinləşdirilməsi prioritetliyini qoruyub saxlayır. İşğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticari əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan böyük quruculuq işlərində Türkiyənin 20-dən çox şirkəti 50-yə yaxın layihə icra edir. Bərpa-quruculuq işlərinin ümumi dəyəri 4 milyard ABŞ dolları həcmindədir. Türkiyə şirkətləri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında təkcə yol infrastrukturunun, hava limanlarının, tunellərin və su anbarlarının tikintisində deyil, aqroparkların yaradılmasında da fəal iştirak edirlər. Bu baxımdan, Zəngilan rayonunda yaradılan "Dost Aqropark" böyük əhəmiyyət daşıyır. Burada "ağıllı kənd təsərrüfatı" texnologiyaları, bərpaolunan enerji və dayanıqlı kənd təsərrüfatı mexanizmlərinə əsaslanan fəaliyyət qurulub.

# Böyük investisiyalar məkanı

***İnvestorların marağının artması region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində Azərbaycanın rolunu daha da genişləndirir***












Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin, əsasən, düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması Araz Vadisi İqtisadi Zonası Sənaye Parkının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Logistik imkanlar baxımından əlverişli ərazidə təşkil olunması investorların diqqətini cəlb edir. Belə ki, Sənaye Parkı yeni salınan magistral avtomobil yolu və dəmir yollarının üzərində yerləşir ki, bu da ərazidən həmin magistral yollara birbaşa giriş-çıxışı təmin edəcək. Bu avtomobil və dəmir yolları Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də Azərbaycan ərazisindən Rusiyaya yüklərin daşınması üçün yeni əlverişli imkanlar yaradacaq. Araz Vadisi İqtisadi Zonası Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir. Artıq 5 sahibkarlıq subyekti Parkın rezidenti kimi, 1 sahibkarlıq subyekti isə qeyri-rezident kimi qeydiyyata alınıb. Bu layihələrin reallaşması nəticəsində, ümumilikdə Sənaye Parkına 32,7 milyon manat investisiya yatırılacaq, 420-dən çox daimi iş yeri yaradılacaq.

Bu günlərdə Beynəlxalq Valyuta Fondu (BVF) Azərbaycanı dünyanın ən cəlbedici investisiya ölkəsi kimi ilk yeddiliyə daxil edib. Fondun 2024-cü il hesabatında əks olunan bu məlumat qürurverici, eyni zamanda Azərbaycanın dünya ölkələri sırasında nüfuzunun göstəricisidir. Azərbaycan ötən dövrdə həm də özünə etibarlı dövlət imici formalaşdırıb. Azərbaycanın sözü imzası, imzası isə sözü qədər etibarlıdır. İstər xarici investorlarla razılaşmalarda, istərsə də dövlətlərarası müxtəlif layihələrin həyata keçirilməsində Azərbaycan hər zaman layiqli tərəf kimi çıxış edib. İllərlə qazanılmış bu etibar və nüfuz isə Beynəlxalq Valyuta Fondu kimi mötəbər qurumun hesabatlarında zaman-zaman öz əksini tapıb.

**Mustafa KAMAL,**
**"Respublika".**